

Milli azadlıqdan şirin nemət yoxdur!

# Sınaqlarda bərkiyən Azərbaycan-Türkiyə dostluğu



Bax səh. 2



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evlərində ölkəmizdə dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə şam ediblər

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
20 avqust 2024-cü il, çərşənbə axşamı
№ 149 (6735)
Qiyməti 60 qəpik

# İlk dövlət səfəri

## Müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular...



**İlham Əliyev: Yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır**

**Vladimir Putin: Azərbaycan tam nizamlanma ilə bağlı bütün prosedurların başa çatmasına istiqamətlənib**

Bax səh. 3

# Zəfər partiyası növbəti qələbə əzmindədir

Bax səh. 6

## Ən yaxşı 10 ölkədən biri

"Financial Times" qrupunun "FDI Intelligence" nəşri investisiya imkanları ilə bağlı perspektivli ölkələrin reytinqini açıqlayıb. Tədqiqat Beynəlxalq Valyuta Fondu və xarici investisiyaların monitorinqi üzrə "Financial Times"ın xidməti olan "fDi Markets"in məlumatlarından istifadə edilməklə ən cəlbedici 50 ölkənin makroiqtisadi və xarici investisiyalar üzrə göstəriciləri qiymətləndirilərək aparılıb. Siyahıda I yerdə Kamboca, II yerdə Filippin, III yerdə isə Keniya qərarlaşıb. Azərbaycan 82,05 bəndlə 7-ci yeri tutub və onluq ölkələri qrupunda qərarlaşıb.

"Financial Times" qrupunun rəyində vurğulanır ki, Azərbaycanda iqtisadi islahatlar, investisiya ilə bağlı yeni hüquqi sənədlərin qəbulu, digər güzəşt və stimullaşdırıcı təminatlar xarici investorların fəaliyyəti üçün əlverişli imkanlar yaradır. Xüsusilə də xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün hüquqi...

Bax səh. 7

## ABŞ-ın büdcə kəsiri və xarici borc rekord həddə çatıb

ABŞ-ın büdcə kəsiri 2024-cü ilin ötən ayları ərzində kəskin artaraq rekord həddə - 6,6 trilyon dollara çatıb. ABŞ Maliyyə Nazirliyinin məlumatına əsasən, bu tendensiya ölkənin büdcə-fiskal siyasətlə bağlı tarixində son əsrdə ən maksimum rəqəmdir. ABŞ-da maliyyə-büdcə tarazlığı sahəsində ən yaxşı göstəricilər Barak Obama dövründə baş verib və Obama büdcə kəsirini azaltmağa nail olan yeganə Amerika lideri olub. Ölkədə ən yüksək büdcə kəsirlərindən biri Donald Trampın dövründə baş versə də, kəsir əmsalı 5,6 trilyon dolları ötməmişdi. Hətta ağır koronavirus pandemiyası dövründə ölkənin büdcəsində mənfi balansının maksimum illik həcmi - 3,1 trilyon dollara yüksəlsə də, sonrakı 2 ildə...

Bax səh. 7

## Dayaq nöqtələrimizdən biri!

Əsrlərlə yaddaşımıza həkk edilmiş, qəlbimizdə böyük ümidlərlə yaşatdığımız vətənpərvərlik ən ali və ülvi hisslərdən biridir. Vətəni sevmədən, qorumadan, dədə-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər nəsil yetişdirmək çətindir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, xalqa xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu isə vətənpərvərliyin ən uca və ali formasıdır...

Zəngin tarixi keçmişimizdən tutmuş bugünkü tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Gənclərimizi Koroğlu, Babək, Cavanşir, Mübariz və s. qəhrəmanlarımızın ruhunda...

Bax səh. 8

## Muğam sənətimizin Xanı...

Onu Azərbaycan muğamının korifeylərindən, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri adlandırırlar. Geniş səs diapazonu ona istər bəmdə, istərsə də zildə oxumaq imkanları verirdi. Bu gün görkəmli xanəndəmiz İsfəndiyar Aslan oğlu Cavanşirovun anadan olmasından 123 il ötür. Azərbaycan tamaşaçısı onu Xan Şuşinski adı ilə tanıdı və sevdi.

**Niyə Xan Şuşinski?**

İsfəndiyar Cavanşirovun Xan adlandırılmasının maraqlı tarixi var. Belə ki, hələ kiçik yaşında olarkən ustadı İslam Abdullayevlə birgə Ağdamın Novruzlu kəndində bir məclisdə iştirak edirmişlər. İslam Abdullayevin xahişi ilə ev yiyəsi qrammofonu qurur və Təbrizli Əbülhəsən xanın ifasında "Kürd Şahnazı" muğamını...

Bax səh. 8

# Yelisey Sarayının siyasi çırpıntıları...



Bax səh. 8

# Sınaqlarda bərkiyən Azərbaycan-Türkiyə dostluğu

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş vermiş meşə yanğınlarının qarşısının alınması üçün Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirildiyini deyərək, yanğınların söndürülməsində məhz "BE-200ÇS" amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulayıb və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirib.

Öz növbəsində "BE-200ÇS" amfibiya tipli təyyarənin qısa zamanda Türkiyəyə göndəriləcəyini deyən dövlətimizin başçısı vurğulayıb ki, yanğınların qarşısının alınması ilə bağlı Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Qardaş ölkədən bədxahları məyus edən növbəti zəng

Tarixi bağlara, ənənələrə, etiqad eyniliyinə, dilin, mədəniyyətin, həyat tərzinin hədsiz oxşarlığına və digər ortaq cəhətlərə malik olan Azərbaycan - Türkiyə dostluğu bu gün elə bir yüksək zirvədədir ki, ona heç kəsin əli çata bilməz. Bu, Şuşa Bəyannaməsi ilə müttəfiqlik münasibətlərini rəsmən təsdiqləyən hər iki ölkənin gücünə-güc qatan, xalqlarımızı qürrələndirən, özünəgüvənli edən, düşmənlərimizi isə paxıllıqdan çatladan bir dostluq nümunəsidir. Tarix boyunca iki xalqın həmrəyliyinin hədəfə alınması dövrləri çox olub. Məkrli qüvvələr dostluğumuza hansı yollarlasa xələl gətirməkdən ötrü müxtəlif ssenarilər qurublar, hiylələr işlədiblər. Ancaq bütün bu cəhdlər sonda iflasa uğrayıb.

Belə cəhdlərə bizim dövrümüzdə də şahidlik edirik. Götürək elə son prosesləri. Ermənistan və onun Qərb müttəfiqləri fəallaşmışdılar. Onlar məqsədli şəkildə dövriyyəyə Azərbaycanla Türkiyə arasında soyuqluq yarandığı barədə feyk xəbərlər buraxırdılar. Bədxahlarımız hətta Prezident Rəcəb Tayyib Ərdoğanın bir qədər bundan əvvəl Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada baş tutan qeyri-formal Zirvə görüşünə obyektiv səbəblər üzündən qatılmamasını belə Türkiyənin Azərbaycana olan incikliyi müstəvisində təqdim edirdilər. Bundan sonra Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsi aktuallaşdırıldı. Elə təsəvvür formalaşdırmağa çalışırdılar ki, guya rəsmi Ankara cəmi bir neçə gün ərzində öz sərhədlərini ermənilərin üzünə taybatay açacaq. Məkrli hiylə ortadadır. Ermənilər və bəlli mərkəzlər yaxşı anlayırlar ki, nə qədər ki, Azərbaycan və Türkiyə bir yerdədirlər, onlar heç bir məqsədlərinə çatmayacaqlar. Buna görə də ortaya şübhə toxumları səpmək, inamsızlıq yaratmaq istəyirlər. Onlar hər vəchlə sərhədlərin açılması məsələsini Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən ayırmağa nail olmaq istəyirlər. Bu, Azərbaycanın və Türkiyənin mövqelərini zəiflədər, ermənilərin əlini gücləndirərdi. Ancaq qardaş ölkənin xarici işlər naziri Hakan Fidan sərhədlərin açılmasının Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesindən kənarda mümkün olmayacağı məzmunlu açıqlama verməklə bədxahlarımızın xəyallarını yenidən sulara qərq etdi.

Azərbaycanda da çox sevilən Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə bu günlərdə telefon açması düşmənlərimizi məyus edən növbəti zəng oldu. Türkiyənin dövlət başçısı meşə yanğınlarına qarşı mübarizə aparmaq məqsədilə Azərbaycanın ehtiyac duyulan "BE-200ÇS" amfibiya tipli təyyarənin təbii fəlakət zonasına göndərilməsi barədə qərar qəbul etməsini ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin növbəti təzahürü kimi dəyərləndirib.

## Qarabağ məsələsində, Vətən müharibəsində Türkiyənin Azərbaycana mənəvi-siyasi dəstəyi

Azərbaycan və Türkiyə çətin günlərin dostlarıdırlar. Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi üç onillik ərzində həmişə Azərbaycana dəstək verirdi. Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətdir. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə cavab olaraq Türkiyə bu ölkə ilə bütün siyasi-



iqtisadi əlaqələri dayandırıb. Eyni zamanda, Türkiyə 1993-cü ildən etibarən işğalçı ölkə ilə sərhədlərini bağlayıb. Türkiyə daim o mövqedən çıxış edib ki, artıq tarixdə qalan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində və suveren dövlətin ərazi bütövlüyünə hörmət prinsipi əsasında həllini tapmalıdır.

Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksəksəviyyəli rəsmiləri Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Prezident İlham Əliyev Türkiyənin Vətən müharibəsində Azərbaycana dəstəyini yüksək dəyərləndirib. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi", - deyə dövlətimizin başçısı vurğulayıb.

Ötən ilin aprelində Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində ölkəmizə qarşı təxribat baş verdi. Belə ki, İrəvanda keçirilən çempionatın açılış mərasimində Azərbaycanın dövlət bayrağı yandırılıb. Bayraqların paradında Azərbaycan Bayrağı zala gətirildikdən sonra azarkeşlərdən biri səhnəyə çıxaraq qızın əlindən milli simvolumuzu götürərək yandırıb və zaldan çıxarıb. Bu, Ermənistanın və ermənilərin ölkəmizə qarşı düşmənçiliyinin təzahürü idi. Ermənistan liderinin - baş nazir Nikol Paşinyanın qatıldığı tədbirdə belə bir hadisənin yaşanması bu ölkədə rasizmin, Azərbaycanafobiyanın dövlət siyasəti səviyyəsinə yüksəldildiyini əyani şəkildə təsdiqləyir. İrəvanda Azərbaycan Bayrağının yandırılması ilə əlaqədar millimizin yarışda iştirakından imtina edildi.

Bu dəfə Türkiyə təmsilçiləri Azərbaycan idmançılarının müdafiəsinə qalxdılar. Çempionatda türkiyəli idmançı qızıl medal qazanıb. Belə ki, 45 kiloqram çəki dərəcəsində çıxış edən Cansu Bektaş fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, birdən qaldırmada 72 kiloqramın öhdəsindən gələrək qızıl medala sahib olub. İrəvanda Azərbaycan Bayrağının yandırılmasından mütəssir olduğunu gizlətməyən türkiyəli atlet idmançılarımıza dəstək jesti edərək belə deyib: "Aldığım medalı azərbaycanlı qardaşlarıma həsr edirəm, onları çox sevirik. Biz hər zaman sizin yanınızdayıq!".

Qarabağ məsələsində, Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi güclü mənəvi-siyasi dəstək və Cansu Bektaşın ifadə etdiyi səmimi fikirlər qardaş ölkənin dövlət və cəmiyyət olaraq respublikamıza, xalqımıza hansı səviyyədə münasibət bəslədiklərini nümayiş etdirir. Onu da qeyd etmək yerinə düşər ki, Rəcəb Tayyib Ərdoğanın özü həmişə ölkəmizə xitabən "Can Azərbaycan!" ifadəsini işlədir.

## Azərbaycan da vəfa borcuna sadiqdir

Prezident İlham Əliyev isə Azərbaycan-Türkiyə münasibətlərini "Bir yumruq" kimi səciyyələndirib. Öz növbəsində, Azərbaycan da ermənilərin Türkiyəyə qarşı irəli sürdükləri əsassız ərazi və "soyqırımı" iddialarına layiqli cavab verilməsində daim qardaş ölkənin yanındadır. Praqada Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində keçirilən iclasda Azərbaycan Prezidentinin nümayiş etdirdiyi qətiyyətli mövqe - sammitə Türkiyə təmsilçisinin qatılmamasından istifadə edərək rəsmi Ankaranın ünvanına hədyanlar, qondarma "soyqırımı" sayıqlamalarını dilə gətirən Ermənistanın sabiq prezidenti Serjik Sarkisyana tutarlı cavab verməsi heç vaxt yaddaşlardan silinməyəcək. Təsadüfi deyil ki, Türkiyə ictimaiyyəti tərəfindən Prezident İlham Əliyevin sammitdə qardaş ölkəni müdafiə məqsədilə etdiyi çıxışı və Onun Sarkisyana ünvanladığı "Türkiyə burada yoxdur, mən buradayam və sizin cavabınızı da mən verəcəyəm" cavabı düşmən ölkənin rəhbərinin sifətinə vurulan tərs sillə kimi dəyərləndirildi.

Azərbaycan həmçinin Türkiyənin bölgədə terrorizmə qarşı apardığı ədalətli mübarizəyə dəstək nümayiş etdirir. Qardaş ölkənin başladığı və uğurla tamamladığı "Zeytun budağı" əməliyyatının aparılmasında Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub.

Qardaş Türkiyə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə dəhşətli terror hadisəsi ilə silkələndi. Səkkiz il bundan əvvəl Türkiyədə baş verənlər dövlət terroruna cəhd idi. Lakin FETÖ və digər satqın qüvvələrlə birləşən imperialist güc mərkəzlərinin qurduqları dövlət terroru planları 15 iyul 2016-cı il tarixində növbəti dəfə iflasa uğradı. Milyonlarla insan dövləti xilas etmək, Prezident R.T.Ərdoğanla həmrəylik nümayiş etdirmək üçün ayağa qalxdı. Bu böyük gücün qarşısında FETÖ, ona himayədarlıq edən qüvvələr dayana bilmədilər və məğlubiyyətə uğradılar.

Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi. "Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamış və həmişə olduğu kimi qardaş Türkiyə dövlətinin və xalqının yanında yer almışdı. Bu, bizim sevincimizi və kədərimizi birgə paylaşdığımız Türkiyəyə qardaşlıq və vəfa borcumuz idi", - deyə Prezident İlham Əliyev həmin hadisələrin səkkizinci ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubunda vurğulayıb.

Türkiyədə 2023-cü il fevralın 6-da mərkəzi Kahramanmaraş olmaqla baş verən 7.7 və 7.6 bal gücündəki dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb. 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub. Azərbaycan hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyəyə yardıma tələsib və bu yardımı indi də davam etdirir.

*Mübariz ABDULLAYEV*

## Türkiyə XİN: Yanğınların söndürülməsinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkür edirik




Türkiyənin Xarici İşlər Nazirliyi (XİN) qardaş ölkənin bir çox bölgələrində baş verən meşə yanğınlarının söndürülməsinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

AZƏRTAC xəbər verir, bu barədə nazirlik "X" sosial hesabında paylaşım edib.

"Ölkəmizdə baş verən meşə yanğınlarının söndürülməsinə verdiyi dəyərli dəstəyə görə can Azərbaycana təşəkkürümüzü bildiririk", - paylaşımda deyilir.

## Türkiyə mətbuatı: Azərbaycan bir daha qardaşlığını nümayiş etdirdi

Türkiyənin aparıcı media orqanları Azərbaycan və Türkiyə liderlərinin son telefon danışığı xəbərini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin media strukturları Türkiyənin müxtəlif bölgələrində baş verən irimiqyaslı meşə yanğınlarının söndürülməsi işlərində Azərbaycanın dəstəyinin vacibliyinə diqqət çəkiblər.







Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə zəngi etməsi ilə bağlı məlumat televiziya kanallarının xəbər buraxılışlarında yer alıb.

Azərbaycandan Türkiyəyə amfibiya təyyarəsinin göndərilməsi ilə bağlı məlumat, həmçinin bir çox qəzet və xəbər saytlarının əsas səhifələrində işıqlandırılıb.

İki qardaş ölkə liderinin telefon danışığı Türkiyə ictimaiyyətinə "Azərbaycan yenidən qardaşlığını nümayiş etdirdi!", "Qardaşlıq əlaqələri məhz belə günlərdə özünü göstərir", "Azərbaycan yanğınların söndürülməsinə yardım göndərir", "Azərbaycan Türkiyəyə amfibiya təyyarəsi göndərir", "Azərbaycan meşə yanğınlarına qarşı Türkiyəyə kömək edir" kimi sərlövhələri ilə təqdim olunub.

Media orqanları Türkiyə Xarici İşlər Nazirliyinin Azərbaycana təşəkkür mesajını da diqqət mərkəzində saxlayıb.

Qeyd edək ki, son günlərdə Türkiyə ərazisində onlarla meşə yanğını qeydə alınıb. Yanğınsöndürmə əməliyyatlarına çox sayda texnika, onlarla helikopter və təyyarə cəlb edilib.



# İlk dövlət səfəri

## Müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular

**Azərbaycan Respublikasında dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini qarşılayıb.**

## İlham Əliyev: Yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır

## Vladimir Putin: Azərbaycan tam nizamlanma ilə bağlı bütün prosedurların başa çatmasına istiqamətlənib

### Məhdud tərkibdə görüş

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə məhdud tərkibdə görüşü keçirilib.

Pörüşdə çıxış edən Prezident İlham Əliyev Rusiya Prezidentinin salamlayaraq qeyd edib ki, görüşləri müntəzəm xarakter daşıyır: "Qeyd etmək istərdim ki, ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq. 2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk. Ona görə də bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin üçün xoş, həm də münasibətlərimiz baxımından faydalı olacaq".



Sonra çıxış edən Prezident Vladimir Putin dəvətə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirib və vurğulayıb ki, Bakıda olmağına, bu şəhərin gözəlliyinə bir daha tamaşa etməyinə çox şaddır: "Əmin oldum ki, Siz və xanımınız onun inkişafına böyük diqqət yetirirsiniz. Bu, göz qabağındadır. Şəhər inkişaf edir, uğurla inkişaf edir, sözsüz ki, regionun oazisinə çevrilir.

Münasibətlərimiz hələ 2022-ci ilin əvvəlində Sizinlə imzaladığımız Bəyannamə əsasında inkişaf edir, uğurla yerinə yetirilir. Bu ilin aprelində Sizin Moskvaya səfəriniz zamanı ikitərəfli münasibətlərimizin inkişafına yaxşı təkan verilib.

İqtisadi-ticari əlaqələr uğurla inkişaf edir. Rusiyada keçirilən əvvəlki görüşümüzdə Siz mənə demişdiniz və Sizinlə razıyam ki, 4 milyard dollardan bir az çox yaxşı rəqəmdir. Bu, yaxşı rəqəmdir, amma bizim imkanlarımızın potensialını əks etdirmir. Həqiqətən, burada yalnız energetika, sənaye kooperasiyası, nəqliyyat, logistika, yüngül sənayedən danışmaq olmaz. Bizim birgə fəaliyyətimizin istiqamətləri çoxdur".

Humanitar əlaqələrə gəldikdə, Rusiya Prezidenti bu əlaqələrə çox böyük əhəmiyyət verildiyini və rus dilinin inkişafına göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Azərbaycanda rus dilində 300 məktəb, Rusiyanın aparıcı ali təhsil müəssisələrinin filiallarının fəaliyyət göstərdiyini vurğulayan Prezident Putin minlərlə azərbaycanlı gəncin Rusiya Federasiyasının aparıcı universitetlərində təhsil aldığını söyləyib və bəyan edib ki, biz bu qarşılıqlı fəaliyyəti genişləndirməyə hazırıq.

### Geniş tərkibdə görüş

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olub.

"Siz birinci dəfə deyil ki, Azərbaycana gəlirsiniz, amma ilk dəfədir dövlət səfəri edirsiniz və bu səfər ikitərəfli münasibətlərimiz üçün müstəsna əhəmiyyətə malikdir" - deyən Prezident İlham Əliyev ölkələrimiz arasında bütün istiqamətlər üzrə dinamik inkişafın olduğunu vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq.

Prezident Vladimir Putin çıxış edərək bildirib ki, Rusiya Federasiyası Hökuməti demək olar ki, tam heyətdə buradadır: "Artıq Sizinlə qeyd etdik və xatırladıq ki, bu yaxınlarda, on gün əvvəl hökumətlərarası komissiyanın iclasında münasibətlərimizin inkişaf etdiyi bildirildi - təkcə bildirilmədi, həm də qeyd edildi ki, biz 2022-ci ilin müvafiq Bəyannaməsində təsbit olunmuş və Sizin cari ilin aprelində səfəriniz zamanı əldə olunmuş razılaşmaları tam həcmdə yerinə yetiririk".



Bu ilin iyununda Azərbaycanda Rusiya Mədəniyyəti günləri keçirildiyini xatırladan Prezident Putin bu tədbirin təşkilinə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirib.

"Aydındır və hamıya yaxşı məlumdur ki, Rusiya, o cümlədən Ukrayna istiqamətində böhranlarla üzləşir, amma Rusiyanın Cənubi Qafqazda vəziyyətdə tarixi iştirakı son bir neçə ildə bizə bu hadisələrə cəlb olunmağın vacibliyini diktə edir, əlbəttə, tərəflərin lazım bildiyi hissədə.

Əgər biz Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq üçün nəsə edə biləriksə, vəziyyəti delimitasiya, sərhədlərin demarkasiyasına gətirib çıxararıqsa, Sizinlə dəfələrlə qeyd etdiyimiz kimi, müvafiq logistika istiqamətlərinin və ya iqtisadiyyatın qarşısında maneələri aradan qaldırarıqsa, buna çox şad olardıq.

Əlbəttə, Azərbaycana səfərdən sonra baş nazir Paşinyanla əlaqə saxlayacağam və ona danışıqlarımızın nəticələrindən bəhs edəcəyəm.

Bilirəm ki, Azərbaycan tam nizamlanma ilə bağlı bütün prosedurların başa çatmasına istiqamətlənib, bu, mənə yaxşı məlumdur. Bu barədə danışacağıq" deyən Rusiya Prezidenti bir çox başqa böyük yaşayış məntəqələrinin qibtə edəcəyi səviyyədə inkişaf etdiyinə diqqəti çəkib.

### İmzalanmış sənədlərin mübadiləsi

Avqustun 19-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə mübadiləsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarının Birgə Bəyanatını qəbul ediblər.

"Azərbaycan Respublikasının ixracın və investisiyaların təşviqi Agentliyi - AZPROMO ilə "Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi



ilə Rusiya Federasiyasının Iqtisadi Inkişaf Nazirliyi arasında iqlim dəyişmələri və aşağı karbonlu inkişaf üzrə Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Federal Əmək və Məşğulluq Xidməti (Rusiya Federasiyası) arasında əməyin təftişi məsələləri üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq Memorandumu", "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş",

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş" mübadilə olunub.

### Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır

İmzalanmış sənədlərin mübadiləsi mərasimindən sonra Azərbaycan və Rusiya prezidentləri mətbuata bəyanatla çıxış ediblər.

Dövlətimizin başçısı çıxışında bildirib ki, Azərbaycan və Rusiya müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir və Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri xüsusi xarakter daşıyır.

Rusiya ilə əmtəə dövriyyəsinin artması əməkdaşlığın böyük potensialından xəbər verdiyini söyləyən Prezident İlham Əliyev vurğulayıb: "Həm ötən il, həm də bu ilin altı ayında əmtəə dövriyyəsində artım əməkdaşlığın böyük potensialından xəbər verir. Biz keçən il 4 milyard dollar həddini keçdik və (bu gün keçirilən görüşlərdə - red.) təbii ki, bunun son hədd olmadığı barədə fikir mübadiləsi apardıq".

Dövlətimizin başçısı bildirib ki, bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır: "...Məhdud tərkibdə görüşdə regional təhlükəsizliklə bağlı məsələləri geniş müzakirə etdik. Ötən ilin sentyabrından sonra regionda tamamilə yeni şərait yaranıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa edib. Təbii ki, yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır".

Dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları ilə bağlı məsələləri ətraflı müzakirə etdiklərini diqqətə çatdıran dövlətimizin başçısı bildirib: "Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal-Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı məqamda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarından danışırıq".

Rusiya Prezidenti Vladimir Putin cıxışında rus dilinə göstərilən diqqətə görə azərbaycanlı həmkarı İlham Əliyevə təşəkkürünü bildirib: "Azərbaycanda rus dilindən hər yerdə və sərbəst istifadə olunur. Hiss edirik ki, Azərbaycan Respublikasının rəhbərliyi bu tendensiyanı hərtərəfli şəkildə dəstəkləyir. İlham Heydər oğlu, rus dilinə göstərilən bu diqqətə görə Sizə minnətdarıq".



Bakıda Rusiya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsünün müzakirə olunduğunu vurğulayan Vladimir Putin əlavə edib: "Azərbaycan Prezidenti bu təşəbbüsü dəstəklədi. Ümidvaram ki, biz onu kifayət qədər tez həyata keçirəcəyik".

"Cənubi Qafqazda sabitlik bütün dövlətlərin və region xalqlarının köklü maraqlarına tam cavab verir" deyən Prezident Putin Azərbaycana səfərinin yekunlarından məmnunluğunu ifadə edib. O, aparılan danışıqların və əldə olunan razılaşmaların Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

### Razılaşmalar Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək

"Danışıqlarda regional gündəliyə dair, təbii ki, Azərbaycanın Xəzər regionunda və Cənubi Qafqazda oynadığı rol nəzərə alınaraq bir sıra məsələlər də nəzərdən keçirildi, aktual beynəlxalq mövzulara da toxunuldu", - deyən Rusiya Lideri vurğulayıb ki, hər iki ölkə xarici siyasətdə beynəlxalq hüququn aliliyi, suverenlik və daxili işlərə qarışmamaq prinsipini qətiyyətlə müdafiə edir.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi MDB Dövlət Başçıları Şurasının iclasına dəvət edib. O deyib: "Rusiya və Azərbaycan əsas çoxtərəfli platformalarda, o cümlədən BMT və Müstəqil Dövlətlər Birliyində öz səylərini sıx əlaqələndirir. Oktyabrda İlham Heydər oğlunu MDB Dövlət Başçıları Şurasının iclasında, həmçinin Kazanda keçiriləcək BRICS sammiti çərçivəsində "autriç" formatında görüşdə görməyə şad olacağıq".

Rusiyanın gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək göstərəcəyini deyən Prezident Putin vurğulayıb: "Biz, həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq".

***

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Bakı Ağ Şəhər"də olublar.**



***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 19-da Bakıda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında olublar.**



***

**Avqustun 19-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə dövlət ziyafəti verilib. Ziyafətdə Azərbaycanın və Rusiyanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.**



# Müasir Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir!

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 1 saylı Şərur-Sədərək seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ziyafət Əsgərovun Şərur rayonunun Oğlanqala, Dizə, Axura, Həmzəli və Havuş kəndlərindən olan seçicilərlə görüşü keçirilib.









Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Şərur rayon təşkilatı sədrinin müavini Adil Əhmədov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdıraraq seçkilərin önəmindən bəhs edib, qazanılan uğurlar və qarşıda duran hədəfləri diqqətə çatdırıb.

Deputatlığa namizəd Ziyafət Əsgərov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin davam etdirdiyi siyasətin uğurlarından geniş bəhs edib: "Sözsüz, gələcək inkişaf, yeni hədəflərin reallaşdırılması, Azərbaycanın qüdrətinin daha da artırılması Heydər Əliyev ideyalarının təntənəsidir. Azərbaycanı işıqlı gələcəyə aparan yol məhz Heydər Əliyev yoludur".

Z.Əsgərov çıxışında seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb. O, deputat seçiləcəyi təqdirdə göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağına söz verib.

Tədbirdə, həmçinin görüş iştirakçılarından Tahir Əliyev, Rəbbil Səfərov, Məhsəti Rzayeva seçiciləri uğurlarımızın davamı naminə parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar.

Öz növbəsində çıxış edən seçicilər də 1 sentyabr - parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Qeyd edək ki, görüşdən sonra deputatlığa namizəd şəhid Hicran Əliyev və şəhid mayor Vüsal Vəliyevin ailələrini ziyarət edib.

# Yeni dönəmdə Azərbaycanın qüdrəti daha da artacaq



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 66 saylı Saatlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əziz Ələkbərlinin rayonun Məmmədabad, Əliabad, Genişkənd, Qara Nuru, Əbil, Cəfərxan, Sarıcalar və Qazanbatan kəndlərinin seçiciləri ilə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov parlament seçkilərinin önəmindən bəhs edib, partiyanın seçki platforması haqqında ətraflı məlumat verib.

Deputatlığa namizəd Əziz Ələkbərli bildirib ki, bu gün bütün sahələr üzrə əldə olunan uğurların əsasını Prezident İlham Əliyevin yürütdüyü siyasət təşkil edir: "Dövlət başçısı İlham Əliyevin uğurlu daxili və xarici siyasət xətti ölkəmizin bütün istiqamətlərdə inkişafını təmin edir. Azərbaycan müstəqil dövlət kimi dünyada yüksək nüfuza malikdir. Yeni dönəmdə Azərbaycanın qüdrəti daha da artacaqdır".

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Bəylər Əliyev, Adil Səfərov və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.



Çıxış edən seçicilər də öz növbəsində 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "YAP xalqın etimadını doğrultmuş partiyadır"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məlahət İbrahimqızı YAP Nəsimi rayon təşkilatının qərargahında seçicilərlə görüş keçirib.



YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı aparıcı rolundan danışıb. O, sentyabrın 1-də keçiriləcək seçkilərin xalqın YAP-a inamının növbəti ifadəsi olacağını əminliklə vurğulayıb: "YAP xalqın etimadını doğrultmuş partiyadır".

Deputatlığa namizəd Məlahət İbrahimqızı YAP-ın seçki platforması barədə məlumat verib. O vurğulayıb ki, partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edib, müstəqil Azərbaycanın tərəqqisinə öz töhfələrini verib.

M.İbrahimqızı Yeni Azərbaycan Partiyasının 1993-cü ildən bu günə qədər bütün seçkilərdə əldə etdiyi tarixi qələbələrdən bəhs edərək qarşıda duran hədəflərə diqqəti cəlb edib.

Tədbirdə çıxış edən təşviqat qrupunun üzvü Şahismayıl İsmayılov və seçici Namiq Əsədov YAP-ın cəmiyyətdə yüksək nüfuza malik olduğunu bildirib, 1 sentyabr - növbədənkənar parlament seçkilərində xalqın inam və etimadının bir daha özünü doğruldacağını deyiblər.

Qeyd edək ki, deputatlığa namizəd Nəsimi rayonu, H.Seyidzadə küçəsində yaşayan seçicilərlə də görüşlər keçirib və şəhid ailələrini ziyarət edib.

# "Ümumxalq partiyası alternativsiz seçimimizdir"





2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ceyhun Məmmədovun YAP Abşeron rayon təşkilatının qərargahında cəbrayıllı seçicilərlə görüşü keçirilib.



YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev bildirib ki, müstəqil Azərbaycan Respublikası dövlət başçısı İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir: "Bu günə qədər əldə olunan uğurlar Azərbaycanın regionun lider dövlətinə çevrilməsini, dünyada qalib və qüdrətli ölkə kimi tanınmasını şərtləndirib. Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir".

Deputatlığa namizəd Ceyhun Məmmədov YAP-ın seçki platforması barədə ətraflı məlumat verib. O, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasının müasir dövlətçilik tariximizin şanlı səhifəsi və zirvə nöqtəsi olduğunu vurğulayıb. Qeyd edib ki, keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinə başlanılıb, mühüm infrastruktur layihələri gerçəkləşdirilib: "Ötən müddət ərzində işğaldan azad edilmiş ərazilərin bərpasına 14 milyard manatdan çox vəsait yönəldilib. Onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə məskunlaşma təmin edilib. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək isə 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək".

Tədbir iştirakçılarından Novruz Quliyev, Elçin Hüseynbəyli, Hafiz Quliyev və digərləri çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizə mühüm nailiyyətlər qazandırdığını bildirib, seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər isə "Ümumxalq partiyası olan YAP alternativsiz seçimimizdir", - deyə vurğulayaraq Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

# Lider dövlətin lider partiyası...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 30 saylı Suraxanı birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Fətəliyevanın seçicilərlə görüşü keçirilib.



YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov ötən dövr ərzində Azərbaycanın dinamik inkişaf yolu keçdiyini, böyük uğurlar, misilsiz və qürurverici qələbələr qazandığını deyib.

Deputatlığa namizəd Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir: "Bu yolu uğurla davam etdirən Prezident İlham Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz dünyada söz sahibinə çevrilib".

S.Fətəliyeva vurğulayıb ki, bu gün Azərbaycan dövlətinin sosial siyasət sahəsində başlıca məqsədi insana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması və sosial ədalət prinsipinin daim qorunmasıdır: "Sosial siyasət sahəsində görülən işlər bundan sonra da vətəndaşların layiqli həyat şəraitinin təmin olunması və sosial rifahının yaxşılaşmasında öz əksini tapacaqdır".

Görüş iştirakçıları Ziyafət Tağıyeva, İkinci Qarabağ müharibəsi qazisi Tariyel Şixbalayev və digərləri çıxış edərək seçiciləri yeni dövrün hədəflərinə nail olmaq üçün Yeni Azərbaycan Partiyasına bir daha etimad göstərməyə çağırıblar. "Yeni Azərbaycan Partiyası lider dövlətin lider partiyası kimi bundan sonra da ölkəmizə böyük uğurlar qazandırmaq iqtidarındadır", - deyə vurğulanıb.

Qeyd edək ki, həmin gün namizəd İkinci Qarabağ müharibəsi şəhidləri Sənan Əhmədov, Muhammad Eissavi və Səxavət Talıbzadənin ailələrini də ziyarət edib.

# Yeni Azərbaycanın bütün hədəfləri xalqımızın parlaq gələcəyi üçündür



**76 saylı Lənkəran-Masallı seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Cavanşir Paşazadə yap.org.az saytına müsahibə verib.**

**- Cavanşir müəllim, seçkilər hər bir ölkənin demokratik inkişafında əhəmiyyətli rola malik olmaqla yanaşı, eyni zamanda, siyasi qüvvələrin malik olduğu imkanların təqdimatıdır. Ölkəmizdə sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin önəmi və mövcud ictimai-siyasi reallıqlar barədə nə deyə bilərsiniz?**

- 44 günlük İkinci Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə növbəti zəfərlərə yol açdı. Azərbaycan bu şanlı Qələbəsi ilə sübut etdi ki, ədalətə və beynəlxalq hüquqa söykənən siyasət davamlı uğurları şərtləndirir. Bu Zəfər Yeni Azərbaycan Partiyasının da həyatında yeniliklərə yol açdı. Belə ki, tarixi Zəfərimizin reallıqları əsasında Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirildi. Yeni Nizamnamənin qəbulu, müasir dövrün çağırışlarını özündə əks etdirən yeni Proqramın işlənib hazırlanması və təsdiqlənməsi, struktur dəyişiklikləri kimi mühüm addımlar partiyanın tarixində yeni səhifənin əsası oldu. Yeni Proqramın əsas şüarı "Biz birlikdə güclüyük!" oldu. Müqayisəli təhlil aparsaq, Yeni Azərbaycan Partiyasının ilk Proqramında əsas çağırış "Yeni müstəqil Azərbaycan uğrunda!" idi. Həmin sənəddə əksini tapan vəzifələr, hədəflər ötən dövrdə uğurla icra edildi.

Bu zamana qədər partiyanın hər bir seçki prosesində platformasına diqqət yetirdikdə uğurlarımızın təqdimatı əsasında açıqlanan hədəflər sırasında torpaqlarımızın işğaldan azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışının əsas yer tutduğunu görmək olar. Artıq 4 ilə yaxındır ki, Qarabağ münaqişəsi tarixə qovuşub. Azad edilmiş ərazilər cənnət məkana çevrilir, soydaşlarımız doğma yurd-yuvalarına qayıdırlar. Yeni Azərbaycan Partiyasının yeni Proqramında, həmçinin "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə təqdim edilmiş seçki platformasında da bütün bu uğurlar və hədəflər öz əksini tapıb. Yeni Azərbaycanın bütün hədəfləri xalqımızın parlaq gələcəyi üçündür.

Yeni Azərbaycan Partiyası bugünədək əldə etdiyi uğurlara və yeni hədəflərə söykənərək 1 sentyabr - növbədənkənar parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılıb. Qeyd etdiyimiz kimi, bu əminliyə əsas verən amillər mövcuddur. Partiyanın 32 ilə yaxın keçdiyi şərəfli yol cəmiyyətdə tutduğu mövqeyə işıq salır. Ümumxalq partiyasına çevrilən YAP sıralarında bütün kateqoriyadan olan insanları birləşdirib, öz monolitliyini qoruyur, hədəflərə çatmaq üçün bütün qüvvə və bacarığını səfərbər edir. Partiyanın hər bir təşəbbüsü, qərarı Azərbaycanın bu günü və gələcəyi üçündür. Əbəs yerə Ümummilli Lider Heydər Əliyev bu partiyanı dünənimizin, bu günümüzün və gələcəyimizin partiyası kimi dəyərləndirməyib. Müxtəlif bölgələrdən olan 550 nümayəndənin iştirakı ilə 1992-ci il 21 noyabr tarixində təsis konfransını keçirən partiyanın sıralarında bu gün 700 mindən artıq üzvün birləşməsi, sözsüz ki, adi bir statistik göstərici deyil. Bu, Heydər Əliyev ideyalarına sədaqətin, onun layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü siyasətə inamın təsdiqidir.

Partiyanın 2021-ci ildə keçirilən VII qurultayında Prezident İlham Əliyev 30 ilə yaxın dövrün reallıqlarına əsaslanaraq belə bir əminliyi ifadə etdi ki, YAP bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Bu, cənab İlham Əliyevin partiyanın fəaliyyətinə verdiyi yüksək dəyər, eyni zamanda, qarşıya qoyulan böyük məsuliyyətdir.

YAP-ın 1 sentyabr - parlament seçkilərində qələbə qazanacağı şübhəsizdir. Populizmdən uzaq, sözü ilə əməli bir olan YAP-a inam və etimad gündən-günə artır.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında əksini tapan mühüm istiqamətlərdən biri də ölkəmizin demokratik inkişafıdır. Bu kontekstdə görülən işlər - əldə edilən uğurlar və qarşıda duran hədəflərlə əlaqədar nə söyləmək olar?**

- Cənab İlham Əliyev çıxışlarında hər zaman bu məqamı vurğulayıb ki, demokratik inkişaf istiqamətində atılan addımlar hansısa beynəlxalq təşkilata xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür. Dünyada ikili stantartlara əsaslanan siyasət özünü qabarıq şəkildə büruzə versə də, ölkəmizdə demokratik təsisatların inkişafına yönələn addımlar beynəlxalq səviyyədə də təqdir edilir.

Azərbaycanda insan hüquqlarının qorunması prioritet məsələlərdəndir. Məlumdur ki, ötən illər ərzində Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə 3 dəfə ümumxalq səsverməsi - referendum keçirilib. Bu dəyişikliklərin böyük bir qismi insan hüquqlarının qorunmasına yönəlib. Konstitusiyanın "Dövlətin ali məqsədi" maddəsinə edilən əlavə və dəyişikliklər də insan amilinin dövlət siyasətinin əsasında dayandığını təsdiqləyir. Belə ki, həmin əlavə və dəyişikliyə əsasən dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması ilə yanaşı, yüksək rifah şəraitinin təmin edilməsidir. Bu məqamı da qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamı əsasında ölkəmizdə 18 iyun - İnsan Hüquqları Günü kimi təsis edilib.

Azərbaycanda azad mətuatın inkişafına göstərilən diqqəti də xüsusi qeyd etmək lazımdır. Ölkə əhalisinin 85 faizdən çoxu internet istifadəçisidir. Azad mətbuatın inkişafına xidmət edən mühüm addımlardan biri kimi yeni "Media haqqında" Qanunun qəbulunu qeyd edə bilərik.

"Siyasi partiyalar haqqında" yeni Qanunun qəbulu da demokratik inkişafa önəmli töhfədir. Ötən müddətdə siyasi partiyalar arasında sağlam dialoq mühiti yaradılıb. Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmaq barədə qərarı da bu kontekstdə mühüm önəm kəsb edir. Dövlət başçısı İlham Əliyev VI çağırış Milli Məclisin ilk iclasında bu çağırışı etmişdir ki, siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz.

Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Heç şübhəsiz, siyasi sistemin inkişafı üçün bundan sonra da bütün lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha möhkəm əsaslar üzərində qurulacaqdır.

Bir sözlə, görülən işlər Azərbaycanın bu günü və gələcəyi üçündür.

**- Cavanşir müəllim, seçicilərlə görüşlərinizdən təəssüratlarınız necədir?**

- Seçicilərlə görüşlər, ilk növbədə, hesabat xarakteri daşıyır. Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi olaraq həm ölkəmizin, həm də Yeni Azərbaycan Partiyasının bu illər ərzində əldə etdiyi uğurlara nəzər salır, qarşıda duran hədəfləri diqqətə çatdırırıq. İctimaiyyəti maraqlandıran məsələlərə xüsusi diqqət yetirilir.

Səmimi ruhda keçirilən görüşlərdən yaranan qənaət budur ki, xalq öz Prezidentinə inanır, Yeni Azərbaycan Partiyasına dəstəyini ifadə edir və birlik, həmrəylik şəraitində yeni hədəflərə doğru inamlı addımlar atmaqda maraqlıdır.

Qarşıda duran hədəflərin reallığa çevrilməsi, təbii ki, seçicilərin yüksək fəallıq nümayiş etdirərək layiqli namizədlərə səs vermələrindən asılıdır. Seçicilərə çağırışım budur ki, birliyimizi, həmrəyliyimizi növbəti dəfə Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstəyimizlə nümayiş etdirək!

# "Daim irəliyə baxmalıyıq!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş İmamverdi İsmayılovun Sumqayıt şəhərində məskunlaşmış Qubadlı və Zəngilan rayonundan olan seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.





Görüşdə YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov və Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyasının qazandığı nailiyyətlərə nəzər salıb, qarşıda duran hədəflərdən bəhs ediblər.

Deputatlığa namizəd İmamverdi İsmayılov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O qeyd edib ki, ölkədə bütün sahələri əhatə edən islahatlar ardıcıl olaraq davam etdirilir: "Dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artırılıb, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb. Bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işləri aparılır. Bütün bunlar milli qürur mənbəyimizdir. Heç şübhəsiz, yeni hədəflərin reallaşdırılması yeni uğurlara yol açacaqdır. Ona görə də daim irəliyə baxmalıyıq".

Tədbirdə, həmçinin seçicilər Çinarə Abbasova, İlhamə Tağıyeva, Cəmilə Mehralıyeva, Vüsalə Hüseynova və digərləri çıxış edərək YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# Davamlı inkişaf yeni uğurlara yol açacaq




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 11 saylı Binəqədi-Qaradağ seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səbinə Xasayevanın YAP Binəqədi rayon təşkilatının qərargahında şəhid ailələri və qazilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, Azərbaycan dünyada müstəqil siyasət həyata keçirərək inamlı qələbələr qazanan və tərəqqi yolunda irəliləyən ölkə kimi tanınır. O, cəmiyyətin bütün təbəqələrinin, o cümlədən şəhid ailələri və müharibə iştirakçılarının dövlətin hərtərəfli qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb.

Deputatlığa namizəd Səbinə Xasayeva YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, YAP xalqın dəstəyi ilə qarşıda duran bütün milli məqsədləri gerçəkləşdirəcəkdir: "Davamlı inkişaf yeni uğurlara yol açacaqdır".

Səbinə Xasayeva vurğulayıb ki, Azərbaycan dövləti və cəmiyyəti hər zaman mübariz Vətən övladlarının şücaətini yüksək qiymətləndirir, şəhidlərin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur: "Ölkəmizin ərazi bütövlüyü və suverenliyi yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi bunun bariz nümunəsidir. Şübhə yoxdur ki, şəhidlərimizin ruhunun şad olduğu indiki məqamda dövlətimizin qüdrəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi Azərbaycanı yeni möhtəşəm nailiyyətlərə aparacaq, tarix güclü Azərbaycanın yeni şanlı qələbələrinə şahidlik edəcəkdir".

Tədbir iştirakçılarından Ağayar Məmmədov, Mirvari Nadirova və digərləri çıxış edərək bildiriblər ki, Azərbaycana mühüm uğurlar qazandıran YAP-a bir daha etimad göstərəcəklər.



# "Yeni qələbələr naminə Yeni Azərbaycan Partiyası!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 22 saylı Nəsimi-Yasamal seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Xaliq Hüseynovun YAP Yasamal rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Azərbaycanın bugünkü inkişafının təməlində Heydər Əliyev ideyalarının dayandığını, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin tarixi nailiyyətlərə imza atdığını vurğulayıb. O, seçiciləri yeni qələbələr naminə Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Deputatlığa namizəd Xaliq Hüseynov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. "Tarixi Zəfərimiz hər birimizi daha uğurlu gələcək naminə hədəflərin reallığa çevrilməsinə dəstək olmağa çağırır", - deyən X.Hüseynov Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində genişmiqyaslı tədbirlərin həyata keçirildiyini, islahatların ölkəmizin inkişafına xidmət etdiyini söyləyib.




Görüşdə, həmçinin 44 günlük Vətən müharibəsi şəhidi baş leytenant Rövşən Nurzadənin atası Əli Nurzadə, İsrayıl İsgəndərov, Mərziyyə Nəcəfova və Rövşən İbrahimli çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

# Milli tərəqqiyə hədəflənən siyasət...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 123 saylı Kəlbəcər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Aidə Əhmədovanın Masazır qəsəbəsində məskunlaşmış kəlbəcərli seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi yad edilib.

Deputatlığa namizəd Aidə Əhmədova YAP-ın seçki platforması barədə məlumat verib. O bildirib ki, ölkəmizin siyasi həyatında aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş möhtəşəm Zəfərdən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatılır: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını təmin edib. Yeni dönəmdə görülən işlər ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə xidmət edir. Yeni reallıqlar şəraitində milli tərəqqiyə hədəflənən siyasət nəticəsində qarşımızda yeni perspektivlər açılıb".





Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.

# Zəfər partiyası növbəti qələbə əzmindədir



**94 saylı Ucar seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Ramil Həsən yap.org az saytına müsahibə verib.**

**- Ramil müəllim, ölkəmiz mühüm siyasi proses ərəfəsindədir. Sentyabrın 1-də Azərbaycanda parlament seçkiləri keçiriləcək. Bu seçkilərin də favoriti, heç şübhəsiz, Yeni Azərbaycan Partiyasıdır. Bu reallığı şərtləndirən amillər hansılardır?**

- Biz bu seçkilərə yüksək əhval-ruhiyyə ilə gedirik. Çünki müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, parlament seçkiləri ölkəmizin ərazi bütövlüyü və suverenliyi şəraitində keçirilir. Şuşada, Xankəndidə, Xocalıda, Laçında və azad olunmuş digər ərazilərimizdə seçki məntəqələri yaradılıb və səsvermə təşkil olunacaq. Əlbəttə ki, bu, çox qürurvericidir.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası budəfəki parlament seçkilərinə də böyük uğurlarla gedir. Ümumiyyətlə, YAP aparıcı siyasi qüvvə kimi bütün imkanlarını dövlət və xalq üçün səfərbər edərək Azərbaycanın qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Prezident, Milli Məclis və bələdiyyə seçkilərinin nəticələri Yeni Azərbaycan Partiyasının nüfuzunu, xalqın bu partiyaya inamını göstərən başlıca amillərdəndir. Ölkədə YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Bu, hər şeydən əvvəl Yeni Azərbaycan Partiyasının öz gücünü xalqın dəstəyindən aldığını göstərir. Bu dəstəyin əsasında isə Ulu Öndər Heydər Əliyevin ideyaları Prezident, partiyamızın Sədri İlham Əliyevin uğurlu siyasəti dayanır.

Yeni Azərbaycan Partiyasının seçki platformasında da qeyd edildiyi kimi, YAP bu zamana qədər Azərbaycanın yüksəlişində - ictimai-siyasi sabitliyin qorunması, əhalinin rifahının yaxşılaşdırılması, milli həmrəyliyin gücləndirilməsi, sosial-iqtisadi islahatların uğurla reallaşdırılması, ətraf mühitin mühafizəsi və "yaşıl dünya" naminə ümumbəşəri əhəmiyyətli təşəbbüslərin reallaşdırılması, dövlətin müdafiə qabiliyyətinin artırılması, beynəlxalq mövqeyinin möhkəmləndirilməsi və bir çox mühüm nailiyyətlərin əldə edilməsində müstəsna rol oynayıb, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa - Heydər Əliyev yolunun davamçısı olan cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcək.

**-Yeni Azərbaycan Partiyası parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb. Yeni dövrün Yeni Azərbaycanını necə xarakterizə etmək olar?**

- Azərbaycanın indiki inkişaf mərhələsi, dünyada, o cümlədən regionda baş verən proseslər və yeni reallıqlar yeni çağırışları özündə ehtiva edir. Dünyada baş verən mürəkkəb proseslərin fonunda Azərbaycan yüksək dinamika ilə inkişaf edir, ictimai-siyasi sabitlik təmin olunub, ölkədə liderxalq birliyi sarsılmazdır. Bütün bunlar Prezident, partiyamızın Sədri İlham Əliyevin zərgər dəqiqliyi ilə həyata keçirdiyi siyasətin nəticəsidir. Azərbaycan Prezidentinin gördüyü möhtəşəm, əzəmətli işlər nəticəsində Azərbaycan tarixində olmadığı qədər güclü dövlətə çevrilib.

Əlbəttə ki, cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurların zirvəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması təşkil edir. Torpaqlarımızın işğaldan azad olunmasında, separatizmə son qoyulmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsi müstəsna əhəmiyyət kəsb edir. Xatırlayırsınızsa, bu ilin yanvarında Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirmişdi ki, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizdə yeni dövrün başlanğıcı qoyulub. Təbii ki, yeni dövr özündə yeni vəzifələri və hədəfləri ehtiva edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının seçki şüarı da təbii qanunauyğunluğu əks etdirir. Partiyamızın seçki platformasında qarşıda dayanan vəzifələr öz əksini tapır. Bu hədəflər xalqın dəstəyi ilə həyata keçiriləcək.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında bir çox məsələlərlə yanaşı, xarici siyasət istiqamətində də vacib məqamlar əksini tapıb. Bununla bağlı nə deyə bilərsiniz?**

- Azərbaycanın müstəqil xarici siyasəti beynəlxalq hüquq normaları, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi və milli maraqların əsas götürülməsi kimi prinsiplər əsasında qurulub. Partiyamızın seçki platformasında vurğulandığı kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət nəticəsində Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətləri uğurla inkişaf etdirilir. Ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır, beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Azərbaycanın 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-2023-cü illərdə isə BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik etməsi uzaqgörən və məqsədyönlü xarici siyasətin uğurlu nəticəsidir. Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın bariz nümunəsidir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması uzun müddət xarici siyasətin əsas prioritetlərindən birini təşkil etmiş və ötən illər ərzində Azərbaycan dövləti bu istiqamətdə çevik siyasi-diplomatik mübarizə apararaq beynəlxalq birliyin diqqətini bu məsələyə cəlb edə bilmişdir. Bu sahədə atılan addımlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasını təmin edən amillərdən biri oldu.

Bu gün Azərbaycanın xarici siyasətinin əsas prioriteti Türk dünyasında ikitərəfli və çoxşaxəli əlaqələri inkişaf etdirərək işbirliyini dərinləşdirmək, Türk Dövlətləri Təşkilatını daha da gücləndirməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk dünyasında əməkdaşlığın genişləndirilməsinə, Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsinə xüsusi önəm verir və bu yöndə uzaqgörən siyasət həyata keçirir. 2024-cü il iyulun 6-da Şuşada imzalanmış "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" Türk dövlətləri ilə müttəfiqlik və strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, Türk Dövlətləri Təşkilatının dünya miqyasında güc mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi strateji vəzifələrdən biridir.

**- Ramil müəllim, Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyiniz növbəti dəfə 94 saylı Ucar seçki dairəsindən irəli sürülüb. Azərbaycanın tərəqqisində vacib rol oynayan amillərdən biri regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərdir. Parlament seçkilərinin təşviqat mərhələsi çərçivəsində seçicilərlə görüşlər keçirirsiniz. Ucar seçicilərinin əhval-ruhiyyəsi necədir və mövcud reallıqları nə cür qiymətləndirirlər?**

- Milli Məclisə seçkilərdə namizədliyimin yenidən irəli sürülməsi mənim üçün böyük fəxrdir. Bu etimada görə Yeni Azərbaycan Partiyasının rəhbərliyinə, şəxsən partiyamızın Sədri, Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Növbəti dəfə deputat seçiləcəyim təqdirdə bu etimadı layiqincə doğrultmağa çalışacağam.

Bilirsiniz ki, Azərbaycanda regionların tarazlı inkişafı strateji hədəf kimi müəyyənləşdirilib. İndiyədək respublikamızda regionların sosial-iqtisadi inkişafına dair bir neçə Dövlət Proqramı həyata keçirilib. Bütövlükdə, regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər məqsədlərin reallaşmasında mühüm rola malikdir. Bütün bunlar isə, şübhəsiz, Azərbaycanın tərəqqisinə xidmət edir.

Təbii ki, ölkəmizin bütün regionlarında baş verən inkişaf Ucar rayonunda da özünü aydın şəkildə göstərir. 2004-cü ildən reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dövlət proqramlarının icrası nəticəsində rayonun siması əhəmiyyətli dərəcədə dəyişib. Ötən dövr ərzində əhalinin sosial məsələlərinin həlli istiqamətində vacib addımlar atılıb, yeni yollar, məktəblər, tibb ocaqları tikilib. Rayonun yaşayış məntəqələrinin enerji təminatı, qazlaşdırılması ilə bağlı ciddi işlər görülüb.

Qeyd etmək istəyirəm ki, millət vəkili kimi seçicilərlə daimi ünsiyyətimiz zamanı bütün bu məsələlər hər zaman diqqət mərkəzində olub. Fəaliyyətə başladığım ilk gündən etibarən çalışmışam ki, seçicilərin qaldırdığı məsələlərə diqqətlə yanaşaraq hər bir vətəndaşın, hər bir seçicinin üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün əlimdən gələni əsirgəməyim. Fəaliyyətim dövründə seçicilərimlə rayon mərkəzində və o zamankı 91 saylı Ucar seçki dairəsini təmsil edən deputat kimi bu dairəni əhatə edən bütün kəndlərdə 80-ə yaxın səyyar, seçicilərin istəyi ilə 165 görüş keçirilib, ümumilikdə 7000 nəfərə yaxın seçici tərəfimdən dinlənilib. Vətəndaşların problemlərinin həlli istiqamətində mümkün olan variantlar araşdırılıb, həll olunması imkanım daxilində olan məsələlər isə səlahiyyətim çərçivəsində icra olunub və ya nəzarətdə saxlanılmaqla aidiyyəti qurumlara ünvanlanıb.

Millət vəkili olaraq təşəbbüsüm və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin dəstəyi ilə yaradılan "Tək Millət, Tək Ürək" Beynəlxalq Humanitar Platforması çərçivəsində və xeyirsevər insanların dəstəyi ilə COVID-19 pandemiyası və Vətən müharibəsi dövründə Ucar rayonunda 1073, ümumilikdə respublikamızın 31 rayonunda 2000-ə yaxın müharibə iştirakçısı, şəhid və imkansız ailə ziyarət edilib, üzləşdikləri narahatlıqlar qeydə alınaraq müvafiq dövlət qurumlarına ünvanlandırılıb.

Hazırda seçicilərlə keçirilən görüşlərlə bağlı təəssüratlarım çox yüksəkdir. Bu görüşlər zamanı bir daha müşahidə edirik ki, vətəndaşlarımız Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləyirlər.

Əlbəttə, vətəndaşlar bu siyasətin uğurlarını öz həyatlarında hiss edir və onun davamlı olması üçün qarşıdan gələn parlament seçkilərində YAP-ın namizədlərinə səs verəcəklər. Bunu görüşlər zamanı seçicilər də qeyd edirlər.

Mən bir daha seçicilərimizə səslənərək hər kəsi sentyabrın 1-də səsvermədə aktiv iştirak etməyə, partiyamızı dəstəkləməyə çağırıram. Çünki Yeni Azərbaycan Partiyası inkişafın və yeniliyin partiyasıdır.

# "Zəfər yolunda birgə addımlayacağıq!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamran Bayramovun Göygöl şəhərində gənclərlə görüşü keçirilib.

YAP Göygöl rayon təşkilatının qərargahında keçirilən görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Görüşdə giriş sözü ilə çıxış edən YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev gənclər siyasətinin Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biri olduğunu diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət göstərməklə Azərbaycanın daha xoşbəxt gələcəyini təmin edir. Bu siyasət mütərəqqi düşüncəli, intellektual, sağlam əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşmasına və inkişafına hədəflənmişdir. O, Azərbaycan gənclərinin Heydər Əliyev ideyalarına sadiq olduqlarını vurğulayıb.

Deputatlığa namizəd Kamran Bayramov əvvəlcə Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını vurğulayaraq YAP-ın seçki platforması barədə məlumat verib. Azərbaycanda gənclər siyasətinin mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu söyləyən namizəd gənclərin cəmiyyətin müxtəlif sahələrində, o cümlədən ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində görülən işlərdən danışıb: "Yeni Azərbaycan Partiyası da öz fəaliyyətində gənclərin potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir".

Görüşdə çıxış edən Dilarə Mövlayeva, seçicilərdən Aslan Həsənov, Nazilə Mirzəliyeva və digərləri daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini ifadə ediblər. "Zəfər yolunda birgə addımlayacağıq!", - deyə vurğulanıb.

Qeyd edək ki, K.Bayramov Göygöl rayonunun Hacıməlik qəsəbəsində, Çaylı, Pənahlılar və Dozular kəndlərində də seçicilərlə görüşüb.



# Yeni Azərbaycan Partiyası öz gücünü xalqın dəstəyindən alır



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 112 saylı Zaqatala seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Asif Əsgərovun rayonun Bəhmətli və Lahıc kəndlərində seçicilərlə görüşləri keçirilib.

Görüşlərdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.



YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O qeyd edib ki, YAP-ın budəfəki parlament seçkilərində də möhtəşəm qələbə qazanacağı şübhəsizdir: "Çünki Yeni Azərbaycan Partiyası öz gücünü xalqın dəstəyindən alır".

Deputatlığa namizəd Asif Əsgərov deyib ki, YAP-ın seçki platformasında bütün sahələrin inkişafı üzrə hədəflər öz əksini tapıb. O, Azərbaycanın dünyada sabitlik və təhlükəsizlik adası kimi tanındığını, milli həmrəyliyin dövlətimizə böyük uğurlar qazandırdığını, ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini bildirib.

Tədbirdə təşviqat qrupunun üzvü Tahir Məmmədov və digərləri çıxış edərək bildiriblər ki, YAP ümumxalq və qələbələr partiyasıdır: "Şübhə yoxdur ki, sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də YAP-ın namizədləri inamlı qələbə qazanacaqlar".

Görüşdə çıxış edən seçicilər də YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Ən yaxşı 10 ölkədən biri

## “Financial Times” qrupu Azərbaycanı investisiyalara açıq ölkə kimi dəyərləndirib

“Financial Times” qrupunun “FDI Intelligence” nəşri investisiya imkanları ilə bağlı perspektivli ölkələrin reytinqini açıqlayıb. Tədqiqat Beynəlxalq Valyuta Fondu və xarici investisiyaların monitorinqi üzrə “Financial Times”ın xidməti olan “fDi Markets”in məlumatlarından istifadə edilməklə ən cəlbedici 50 ölkənin makroiqtisadi və xarici investisiyalar üzrə göstəriciləri qiymətləndirilərək aparılıb. Siyahıda I yerdə Kamboca, II yerdə Filippin, III yerdə isə Keniya qərarlaşıb. Azərbaycan 82,05 bəndlə 7-ci yeri tutub və onluq ölkələri qrupunda qərarlaşıb.




“Financial Times” qrupunun rəyində vurğulanır ki, Azərbaycanda iqtisadi islahatlar, investisiya ilə bağlı yeni hüquqi sənədlərin qəbulu, digər güzəşt və stimullaşdırıcı təminatlar xarici investorların fəaliyyəti üçün əlverişli imkanlar yaradır. Xüsusilə də xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün hüquqi islahatlar həyata keçirilib, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılıb.

Post-pandemiya dövründə biznes mühitinin daha da yaxşılaşdırılması, iqtisadiyyata investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən “açıq qapı” siyasəti daha da təkmilləşdirilməkdədir. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Dövlət başçısı iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatların genişləndirilməsini, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühitinin daha da yaxşılaşdırılmasını, həmçinin investisiyaların qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsini əsas məsələlər kimi qarşıya məqsəd qoyub. İnvestorlar üçün biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə “bir pəncərə” prinsipinin tətbiqi xarici və yerli sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub, biznesin qeydiyyatının asanlaşmasına və vergi yükünün aşağı düşməsinə imkan verib. Belə ki, “bir pəncərə” sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama prosedurları 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə endirilib.

Son illərdə “İnvestisiya fəaliyyəti haqqında” və “Xarici investisiyaların qorunması haqqında” qanunlarda müvafiq təkmilləşdirmələrin aparılması, Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında yeni sazişlər imzalaması, rəqabətlə bağlı məcəllənin hazırlanması investisiya qoyuluşunu daha da təşviq edib. Eləcə də institisional islahatların davam etdirilməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artırıb. Bu təşviqedici tədbirlərin sayəsində 2023-cü ildə Azərbaycanın qeyri-neft iqtisadiyyatına birbaşa 2 milyard dollarından çox xarici investisiyalar yatırılıb.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə, 2023-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub. 2023-cü ildə ölkə iqtisadiyyatına yönəldilmiş 20,3 milyard manat həcmində sərmayənin təxminən 7 milyard manatı xarici investisiyalar təşkil edib. Sərmayə qoyuluşlarının artım dinamikası 2024-cü ilin ilk rübündə də davam edib və yanvar-mart aylarında əsas kapitala 3 milyard 809 milyon manat məbləğində investisiya yatırılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur. Xüsusilə də qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 4,8 faiz artıb ki, bu da investisiya portfelinin əsas etibarilə neftdən kənar sektorlarda cəmləşdiyini təsdiqləyir. Qeyd edilən dövrdə xarici investorların Azərbaycan iqtisadiyyatına yatırdığı kapitalın həcmi təxminən 800 milyon manat təşkil edib.

Azərbaycanın investisiya cəlbedciliyinə görə, onluq qrupunda yer alması xarici sərmayə qoyuluşlarının təşviqində yeni motivasiyalara səbəb olacaq. 2024-cü ildən qüvvəyə minən Rəqabət Məcəlləsinin qəbul edilməsi xarici investorların ölkə iqtisadiyyatında iştirakını artıracaq, onların yeni istehsal və xidmət müəssisələri yaratmasına, əlavə sərmayələr qoymasına təkan verəcəkdir. Mövcud investisya reytinqi həmin sahələrə xarici investorların, o cümlədən azad edilmiş ərazilərdə “açıq qapı” siyasətinə əsasən, “yaşıl enerji”yə və turizmə, aqrara sənayeyə sərmayə qoyuluşlarının artmasına səbəb olacaqdır.

***ELBRUS***

# ABŞ-ın büdcə kəsiri və xarici borcu rekord həddə çatıb

ABŞ-ın büdcə kəsiri 2024-cü ilin ötən ayları ərzində kəskin artaraq rekord həddə - 6,6 trilyon dollara çatıb. ABŞ Maliyyə Nazirliyinin məlumatına əsasən, bu tendensiya ölkənin büdcə-fiskal siyasətlə bağlı tarixində son əsrdə ən maksimum rəqəmdir. ABŞ-da maliyyə-büdcə tarazlığı sahəsində ən yaxşı göstəricilər Barak Obama dövründə baş verib və Obama büdcə kəsirini azaltmağa nail olan yeganə Amerika lideri olub. Ölkədə ən yüksək büdcə kəsirlərindən biri Donald Trampın dövründə baş versə də, kəsir əmsalı 5,6 trilyon dolları ötməmişdi. Hətta ağır koronavirus pandemiyası dövründə ölkənin büdcəsində mənfi balansının maksimum illik həcmi - 3,1 trilyon dollara yüksəlsə də, sonrakı 2 ildə yumşalmalar qeydə alınmışdı.



Avqustun ilk ongünlüyündə ABŞ-ın büdcə kəsiri illik müqayisədə 10,4 faiz artaraq 243,7 milyard dollara çatıb ki, kəsirin artması maliyyə balansı göstəricilərinə də mənfi təsir edib və xərc öhdəliklərini icra etmək və kəsiri maliyyələşdirmək üçün ABŞ dövlət borcunu artırmağa məcbur olub. Nəticədə ölkənin xarici borcu da rekord həddə yüksəlib və hazırda 35 trilyon dollardan yuxarıdır. Bütün bunlar ölkədə fiskal yığım mənbələrində də müəyyən qırılmalara gətitib çıxarıb, bunun da əsas səbəbi iqtisadi aktivliyin zəifləməsidir. Belə ki, ABŞ-da 2024-cü ilin ilk yarısında iqtisadi artım 2,8 faiz proqnozlaşdırılsa da, inkişaf indikatoru gözlənildiyindən 2 dəfə az olub və 1,4 faiz təşkil edib. Ölkənin maliyyə resurslarının məhdudluğu və borc yükünün artması sözsüz ki, investisiya layihələrinə də ciddi təsir göstərib, ölkədə investisiya bazarlarında da zəifləmə qeydə alınıb, investisiya alətlərində durğunluq baş verib və aktivlərə sərmayələr azalıb. Xüsusilə də mənzil sektoruna investisiyalar 1,5 faiz azalıb.

Yeri gəlmişkən, hazırda Avrozona regionunda da yüksək inkişaf etmiş dövlətlərin böyük bir qismində həm büdcə kəsirinin, həm də xarici borcun artımı müşahidə edilməkdədir. Fransa, Almaniya, Niderland, Belçika və digər ölkələrdə büdcələrdə kəsir əmsalı 0,8-1,6 faiz yüksəlib, həmin ölkələrin cari maliyyə öhdəliklərinin icrasında yaranmış çətinliklər borcalnmaya səbəb olur. Bir neçə gün əvvəl Böyük Britaniyanın “Financial Times” nəşri qlobal iqtisadiyyatla bağlı açıqladığı sənəddə dünya səhm və maliyyə bazarlarında gərginliklərin artdığını və baş verənlərin fonunda yeni tənəzzül meyillərinin yaranacağını istisna etməyib. Ələlxüsus da, ABŞ-da qiymətli kağızların faiz dərəcələrində kəskin oynamalar, birjalarda səhmlərin ucuzlaşması maliyyə bazarlarında sarsıntılara yol aça bilər.

Dünya səhm bazarlarında gözlənilən tənəzzülün əsas səbəblərindən biri iqtisadi amillərlə yanaşı, geosiyasi proseslərlə də əlaqədardır. Belə ki, ABŞ-da yaxın aylarda keçiriləcək prezident seçkiləri ərəfəsində siyasi gərginliyin artması, Rusiya və Ukraynada müharibə, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması və digər mənfi xarici şoklar qlobal investisiya bazarları üçün risklərin siyasi motivini təşkil edir. Xüsusilə də Rusiya-Ukrayna müharibəsi ilə bağlı qlobal iqtisadi zəncirin pozulması, nəqliyyat-enerji-logistika təchizatlarındakı qırılmalar iqtisadi dayanıqlılığı ləngidir. Bundan başqa, Aİ zonasında alıcılıq qabiliyyətinin zəifləməsi və yüksək faiz dərəcələri fonunda kreditlərin azalması, eləcə də investisiya təşviqinin zəifləməsi səbəbindən Avrozonada iqtisadi artım gözləntiləri də azalır.

Hazırda ABŞ və Avropa Birliyi ölkələrinin büdcə kəsirlərinin artımı fonunda xarici borc yükü ÜDM-in 60-70 faizindən də çoxdur. Bu, dünya üzrə ən təhlükəli göstərici hesab edilə bilər. Beynəlxalq Valyuta Fondunun metodologiyasına əsasən, xarici borcun ÜDM-ə nisbəti 50 faizi aşması “qırmızı xətti” ötmək anlamına gəlir və maliyyə-büdcə dayanıqlığına ciddi zərbə vura bilər. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Qeyd edək ki, hazırda qlobal miqyasda xarici borc yükünə görə, Azərbaycan ən əlverişli ölkələr qrupunda yer alır. 2024-cü il 1 iyul tarixinə Azərbaycanın xarici dövlət borcu, xarici ödənişləri üzrə öhdəliklər də nəzərə alınmaqla 5,3 milyard dollar ekvivalentinə bərabər olub. Bu həcmdə borc portfeli ÜDM-in 10 faizindən də aşağıdır. Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələri sırasında yer alır. Ölkəmiz regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 10 faizdən də aşağıdır.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2024-cü ilin birinci rübündə 10,9 milyard dollar olmaqla ÜDM-in 50,6 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,6 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 faizdən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 540 dollardır.

***E.CƏFƏRLİ***

# Rəşad Məcidin yaradıcılığı haqqında...

Çağdaş Azərbaycan ədəbiyyatının önəmli təmsilçilərindən biri olan Rəşad Məcid duyğu və düşüncələrini şeir diliylə ifadə edərkən öz “səmimiyyətiylə” önə çıxır. Sadə bir dillə, yalın bir izahı mənimsəyən Rəşad Məcidin şeirlərini oxuyarkən, onun çəkdiyi acıların, yaşadığı sevinclərin, sarsıldığı ayrılıqların, yaşadığı məğlubiyyətlərinin, bitib-tükənməyən gözləməyinin izlərini görmək mümkündür. Bu səbəbdən gələcəkdə onun şeirləriylə əlaqəli araşdırma edənlər bu misraların izinə düşərək onun hayatı və yaşadıqlarıyla bağlı bir çox məlumatı əldə edə biləcəklər.



Rəşad Məcid bu şeir anlayışıyla ədəbiyyata Türk Ədəbiyyatında “I. Yeni” şeir axımının qabaqcılı olan Orxan Vəli ilə eyni pərdədən səslənir. Rəşad Məcid də eynilə Orxan Vəli kimi gündəlik həyatı, həyatın axışını, bu axış içində gördüklərini, yaşadıqlarını, yaşanılanlar qarşısındakı duyğu və düşüncələrini kəlmələrin, məzmunların arxasına saxlamadan, içindən gəldiyi kimi şeirə tökür. Beləcə həyatın içindən gələn bu şeirlərin misralarından bir şair ömrü poetik bir irmaq kimi axıb gedir. Bir hava limanında sevgiliylə ayrılığın, on gün öncəsində göy üzündə yaşanan ayrılıq ağrısını xatırlatmasını təsvir edən aşağıdakı sətirlər şairin şəxsən yaşadıqlarından başqa bir şey deyildir:




***Bir azdan göydə olacaqsan,***
***Buludlardan yuxarıda,***
***Ulduzlara yaxın***
***...***
***On gün əvvəlki səsim***
***Yəqin oralarda***
***10 min metr yuxarıda dolaşır.***

Rəşad Məcidin bu kitabında yer alan şeirlərindən sevgiyə həsr olunanların böyük bir qismi oxucuda sadəcə “bir” şəxsə yazılmış təəssüratı yaradır. Bütün bu şeirlər sitəm, həsrət, sevgi ilə inşa edilmiş bir dünyanı yıxıb, darmadağın edən o məchul şəxsə yönəlir... Onun həyatından, könlündən, ruhundan, hətta hüceyrələrindən ayrılıb, qopub gedən bu poetik qəhrəman, sanki bu şeirlərin də müəllifi və yaradıcısıdır...

Şairin həyatındakı bu böyük “ayrılıq”, şairin ruhundan bu bir anda “gediş” ilə yaranan boşluq Rəşad Məcidin həsrət çəkən misralarıyla böyük bir burulğana çevrilir və bu burulğan sanki duyğular seli halında axıb gələn şeir irmağını içinə çəkib ayrılıq, həsrət, giley-güzar və vəfasızlıq dənizinə sürükləyir:

***Sən elə telləri qırıb getmisən,***
***Sən elə yaralar vurub getmisən,***
***Təpəri yoxdu ki, dözüb dayansın,***
***Nə mənim dünyamın,***
***nə bu dünyanın.***

Rəşad Məcid ayrılıq dənizində, ümidsizcəsinə çırpınan misralarıyla bir “axtarış” içində adətən boğulan sətirlərin müəllifidir. Onu bu axtarışa yönəldən hiss iliklərinə qədər işləyən və sonra daşa dəyən sevginin zəif də olsa parlayan ümid işığıdır. Gedənin qayıdacağına aid şairin ürəyində cücərən bu ümid onun misralarında həsrətə, darıxmaq hissinə qarışaraq bir çağırışa dönür:

***Azdı, ya çoxdu demə,***
***Bir gündə iki görüş.***
***Giribdisə araya,***
***Acı söz, süni gülüş,***
***Bir də qayıt, bir də dön,***
***Təzə olsun bu gəliş.***

Rəşad Məcidin şeirlərindəki ümidə tutunaraq edilən bu çağırış gedənin gəlməyişiylə başqa bir axtarışa çevrilir sanki, şairin bundan sonra aradığı şey “vəfa”dır. Ancaq gedənin “vəfasızlığı” onun şeirində ağrıya, acıya, giley-güzara dönüşür:

***Sən***
***“devlə yol gedə” bilməzsən,***
***Sənin bataqlıqda boğulanı***
***çıxarmağa gücün çatmaz***
***Sevgidən ölmək,***
***Darıxmaqdan ölmək***
***Ağlına batmaz.***
***Sənin sevməyə də, sevilməyə də***
***gücün yetməz.***

Eşqin qədim kitabında qeyd olunmuş bütün aşiqlərin verdiyi ortaq bir hökm vardır: “Gözəllərdə vəfa yoxdur, axtarma!”

Hətta Füzuli:

*“Gər dersə ki, Füzuli gözəllərdə vəfa var,*
*Aldanma ki, şair sözü əlbəttə yalandır”-* etirafını edir.

Ancaq Rəşad Məcidin ümidləri kiçik bir qığılcımla yenidən alovlanır, ürəyindəki sevgi ümidi yenidən pöhrələnir. Onda gedənin geri qayıdacağına aid ümidlər yox olmur, bu gözləyiş başqa şeirlərə, misralara sirayət edir:

***Boğuluram səfalət içində, Həyat adlanan***
***bu bataqlıqdan***
***çıxmağa gücüm qalmayıb***
***Bu yandan da sən gəlmirsən.***

Sevgilinin dönməyəcəyi gerçəyi ilə dəfələrlə qarşılaşan, amma bu gerçəyə inanmaq istəməyən Rəşad Məcid hər şair kimi bir təsəlli qapısı axtarır. Nəhayət xatirələri bağrına basaraq o qapını aralayan Rəşad Məcid də “Bir də gəlməyəcək sənin tək qadın” təsəllisinə sığınır. Bu təsəlliylə keçmişin xatirələriylə könlünü, ruhunu ovunduran şair az qala “sevgidə” kamilləşərək daha sonra başqa bir ayrılığın ruhunda yaratdığı sarsıntıları tərənnüm etməyə başlayır...




Bu ikinci “ayrılıq” Rəşad Məcidin doğulub böyüdüyü yurdundan, torpağından ayrılıqdır. Onun bu kitabda yer almasa da, Qarabağda talan olmuş uşaqlığının və gəncliyinin şəhəri Ağdama, Laçına, Şuşaya yazdığı həsrət və özləm dolu şeirlərini bilirik. Bu kitabda yer alan və “Şuşa Dəftəri” başlığıyla yazdığı şeirlərsə onun otuz il sonra vətən torpağıyla qovuşmağının tərənnümündən ibarətdir.

Rəşad Məcid gözəllərdən bir vəfa görməsə də, vəfalı vətən torpağına qovuşduğu üçün xoşbəxtdir. Çünki, onun poetikasında o topraqlar heç dəyişmədən əsl sahiblərini gözləyən sadiq bir sevgilidir. “Mənim sadiq yarım qara topraqdır” deyərək əbədi gerçəyi dilə gətirən Aşıq Veysəl kimi Rəşad Məcid də bu vəfa və sədaqət qarşısında heyranlığını gizləyə bilmir. Öldüyümüz zaman belə bizi bağrına basan vətən torpağıyla görüşməkdən, torpağın vəfasından dolayı özünü xoşbəxt sayır. Çünki otuz il öncə vətən torpağından ayrılan, ayrılmağa məcbur qalan şair yenidən o torpaqlara döndüyündə torpaq onu köksündə çobanyastığı, kəklikotu, lalələr, güllər və çiçəklərlə qarşılayır. İsa Bulağı da, Turşsu da, Kirs Dağı da, Cıdır düzü də öz yerindədir və əsl sahiblərini gözləyirlər. Sədaqət timsali olan o torpaqlar şairi, dan yeri ağaranda Cıdır düzündə, bir günorta vaxtı İsa Bulağında, bir axşam üstü Turşşu yaylasında gəzərkən illər öncəsinə, uşaqlıq illərinə geri qaytarır:

***Turşsudan doldurub şüşəni***
***Bir dəstə çiçək dərib***
***Yoxuşa dırmanırkən***
***Baxsan özünə...***
***Ey şair! İnan ki, bu***
***Turşşuyun hikmətidir,***
***Səni keçmişə göndərir***
***Körpə uşağa döndərir...***

“Şuşa Dəftəri” Rəşad Məcidin Türkiyədə çıxan dördüncü kitabıdır. Daha əvvəl onun Türkiyədə “Bir Daha Gəlməyəcək (Şeirlər)”, “Dəlicəsinə” (Esselər), “Qələmsiz Yazılanlar”, (Sosial Media Ədəbiyyatı) adlı kitabları çap olunub. Türk oxucularının yaxından tanıdığı Rəşad Məcidin daha çox sərbəst vəzndə qələmə alınmış bu şeirlərinin də maraqla qarşılanacağını ümid edirəm.

Bu yaxınlarda Rəşad Məcidin 60 yaşı tamam olur . Çap etdiyimiz “Şuşa dəftəri” kitabı da “Türk Ədəbiyyatı Vəqfi” tərəfindən doğum günü münasibətilə əziz dostumuza yubiley hədiyyəsi olsun. Onu ürəkdən təbrik edir, yaradıcılıq uğurları arzulayıram....

***İmdat AVŞAR***
***11/08/2024- İstanbul***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Muğam sənətimizin Xanı...



## İsfəndiyar Cavanşirovun doğum günüdür

*Yeganə BAYRAMOVA*

Onu Azərbaycan muğamının korifeylərindən, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri adlandırırlar. Geniş səs diapazonu ona istər bəmdə, istərsə də zildə oxumaq imkanları verirdi. Bu gün görkəmli xanəndəmiz İsfəndiyar Aslan oğlu Cavanşirovun anadan olmasından 123 il ötür. Azərbaycan tamaşaçısı onu Xan Şuşinski adı ilə tanıdı və sevdi.

**Niyə Xan Şuşinski?**

İsfəndiyar Cavanşirovun Xan adlandırılmasının maraqlı tarixi var. Belə ki, hələ kiçik yaşında olarkən ustadı İslam Abdullayevlə birgə Ağdamın Novruzlu kəndində bir məclisdə iştirak edirmişlər. İslam Abdullayevin xahişi ilə ev yiyəsi qrammofonu qurur və Təbrizli Əbülhəsən xanın ifasında “Kürd Şahnazı” muğamını dinləyirlər. Məclisdə olanların heyranlıqla qulaq asdığını görən İslam Abdullayev üzünü yeniyetmə İsfəndiyara tutaraq, bəlkə sən də “Kürd Şahnazı” oxuyasan deyir. Ustadının sözünü yerə salmayan İsfəndiyar muğamı elə bir şövqlə, daha zildən ifa edir. Onun bu ifasına heyran qalan bütün məclis əhli alqışlarla qışqırır: “Əsl xan elə bu imiş ki”. İslam Abdullayev şagirdinə xeyir-dua verərək: “Bu gündən sən oldun Xan”, - deyir.

Beləliklə, Azərbaycan muğam sənətinin Xanı - Xan Şuşinski yaradıcılığının uğurlu, şöhrətli dövrü başlayır. Onun bir xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin də böyük təsiri olmuşdu. O, öz müəllimlərindən “Mirzə Hüseyn segahı”, “Rast”, “Şüştər”, “Şur” kimi bir çox muğam və xalq mahnılarını öyrənib.

Xan Şuşinski Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Deyilənə görə, Üzeyir Hacıbəyli də mahnılarını Xan Şuşinskinin ifasında dinləməkdən xüsusi zövq alırmış, xüsusən də “Qaragöz” mahnısını.

**Havalansın Xanın səsi...**

Dahi sənətkarın səsi, ifası elm-sənət adamlarının, yazıçı və şairlərin də diqqət mərkəzində olub. Onun yaradıcılıq dünyası şairlərimizin ilham obyektinə çevrilmişdir. Onlar sənətkara şeirlər qoşur, əsərlərində onu yad edirdilər.

Görkəmli şair Səməd Vurğun Xan Şuşinskinin füsunkar sənətini, nadir səsini dərindən duyub sevmişdi, hətta özünün məşhur “Azərbaycan” şeirində bunu məhəbbətlə tərənnüm etmişdi:

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan.*
*Axşam üstü qoy uzaqdan,*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi...*

**Səhnədən də Xan kimi getdi!**

Xan Şuşinski ölümünə 10 il qalmış heç vaxt əlinə qaval alıb bircə ağız belə oxumur və təbii ki, səhnəyə çıxmır. Bu, Azərbaycanın mədəniyyət tarixində vaxtında səhnədən getməyin ən ağayana nümunəsi hesab olunur. Dahi sənətkarın səsinin yadigarı kimi günümüzə cəmi 240 dəqiqəlik lent yazısı gəlib çatıb. Muğam sənətimizin korifeyi 1979-cu ildə vəfat edib və Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilib. Dünyaya çox xanlar gəldi-getdi. Lakin bircə Xan qaldı! O da muğam sənətimizin xanıdır...

# Dayaq nöqtələrimizdən biri!

## Vətənpərvərlik tərbiyəsi ailədən gəlir...

*Yeganə BAYRAMOVA*

Əsrlərlə yaddaşımıza həkk edilmiş, qəlbimizdə böyük ümidlərlə yaşatdığımız vətənpərvərlik ən ali və ülvi hisslərdən biridir. Vətəni sevmədən, qorumadan, dədə-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər nəsl yetişdirmək çətindir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, xalqa xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu isə vətənpərvərliyin ən uca və ali formasıdır...

Zəngin tarixi keçmişimizdən tutmuş bugünkü tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Gənclərimizi Koroğlu, Babək, Cavanşir, Mübariz və s. qəhrəmanlarımızın ruhunda tərbiyələndirmək əsas vəzifəmiz olmalıdır. Bu baxımdan gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, hər kəsin milli soykökümüzə, tariximizə, folklorumuza, min illərdən bəri xalqımızın yaratdığı mənəvi dəyərlərə dərindən yiyələnməsi üçün mühüm işlər görülür.

**Vətənpərvərlik bütövlüyümüzün təməlidir**

Mövzu ətrafında fikirlərini “Yeni Azərbaycan”la bölüşən Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Müşfiq Məmmədli bildirib ki, qloballaşan dünyanın əsas mövzularından biri də gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsidir. Bu istiqamətdə digər ölkələrdə olduğu kimi, ölkəmizdə də müəyyən tədbirlər görülür: “Ümumiyyətlə, gənc nəsil dövlətimizin dayaq nöqtələrindən biridir desək, yanılmarıq. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları həmişə vətənpərvər olub, işğalçılara qarşı qəhrəmancasına mübarizə apararaq Vətənimizi düşmən ayağına verməyiblər”.

**Davamlı təbliğat önəmlidir**

M.Məmmədlinin fikrincə, vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir: “Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur. Onlar nizam-intizamlı, savadlı olmalı, hər zaman nümunəvi davranmalı, dövlətin tarixini, coğrafiyasını, xalqının mədəniyyətini, milli adət-ənənələrini bilməli, bu torpağın hər daşını belə sevməlidirlər. Ona görə də gənclərin vətənpərvər ruhda yetişməsi üçün davamlı təbliğat və maarifləndirmə çox önəmlidir. Zaman-zaman digər dövlətlərin, xalqların nümayəndələri ilə görüşəndə bizim böyük qəhrəmanlıq nümayiş etdirdiyimizi, 30 il dayanmadan torpaqlarımızın azadlığı uğrunda mübarizə apardığımızı deyirlər. Bu nəyin sayəsində oldu? Davamlı təbliğatın, həyata keçirilən işlərin nəticəsi idi. Ona görə də həmişə qeyd etdiyimiz kimi, dövlətləri güclü edən onun dəyərləri, birliyi, həmrəyliyidir. Zəngin ənənələrimiz, tariximiz var. Güclü olmaq istəyiriksə, tariximizi yaxşı öyrənməli, dəyərlərimizi təbliğ etməliyik”.



**Zehnimizdə daim həkk olunmalıdır ki...**

Deputatın sözlərinə görə, hazırda dünyada ciddi proseslər gedir. O, qeyd edib ki, bəzən həmin prosesləri “qloballaşma” adlandırırlar: “Günümüzdə qloballaşma bizim də həyat tərzimizə keçib. Bunu bütün sahələrdə görürük. Dünyəvi proseslərdən sığortalanmaq üçün isə bayaq bildirdiyimiz kimi, davamlı təbliğat aparılmalıdır. Ailələrdə milli dəyərlər qorunmalıdır, məktəblərdə, ali təhsil müəssisələrində dəyərlərimizin müdafiəsi üçün bütün işlər görülməlidir. Davamlı olaraq vətəndaşların zehnində həkk olunmalıdır ki, bizim güclü olmağımız, inkişafımız bilavasitə bu təbliğatlardan asılıdır. Əslində xalqımızın həmrəy olmağı Qarabağ zəfərini təmin etdi. Yenidən güclü olmaq istəyiriksə, birliyimizi qorumaq istəyiriksə, bu istiqamətdə fəaliyyətimiz davamlı olmalıdır. Keçmiş tariximizi də unutmamalıyıq. Hazırda yeni bir mərhələyə qədəm qoymuşuq. Keçmişi unutmamaq, amma gələcəyə baxmağı da bacarmaq lazımdır. İndiki zamanda qarşıda duran ən mühüm vəzifələrdən biri dəyərlərimizi, birliyimizi, həmrəyliyimizi qorumaq və gücləndirməkdir. Bu məqsədlə yeni filmlərin çəkilməsi, musiqilərin yazılması və yeni əsərlərin ərsəyə gətirilməsi xüsusi əhəmiyyət daşıyır”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**


# Yelisey Sarayının siyasi çırpıntıları...

## Makronun impiçment məsələsi gündəmdə

Fransanın siyasi çevrələrində Makronun istefası məsələsi “Paris - 2024” -lə əlaqədar olaraq ertələnsə də, Olimpiya Oyunları başa çatdıqdan sonra yenidən gündəliyin mərkəzinə gəlib. Məlum olduğu kimi, Makron öz hakimiyyətinin ömrünü uzatmaqdan ötrü müxtəlif manipulyasiyalara əl atmaqdan çəkinmir. O, Olimpiada ərəfəsində hakimiyyətinin legitimliyini əsaslandırmaq üçün beynəlxalq birliyə, ayrı-ayrı idman federasiyalarına müraciətlər ünvanladı, eyni zamanda daxili auditoriyanı barışığa çağırdı.

Ancaq belə görünür ki, makronistlərin maxinasiyaları bir nəticə verməyib. Makron və onun başına yığdığı dəstə Olimpiada bəhanəsi ilə yalnız bir neçə gün “İstefa”, “İmpiçment” ittihamlarından yayına biliblər. Siyasi çevrələr Olimpiadaya ev sahibliyinin məsuliyyətini anlayaraq və Fransanın beynəlxalq imici məsələsini nəzərə alaraq “Paris - 2024” günlərində hakimiyyətin istefası məsələsini təxirə saldılar. Artıq Olimpiada bitib və daha Makronun bəhanələrinə yer yoxdur.

## Fransada siyasi böhranı açıq müstəviyə çıxaran iki seçki

Əslində, bu gün Fransada yaşanan siyasi böhranı şətləndirən ən mühüm amil Makronun iki prezidentliyi dönəmində həyata keçirdiyi yarıtmaz siyasətdir. Bu siyasət Fransanı böyük dərəcədə özünün tarixi ənənələrindən və bəyan etdiyi demokratiya, ədalət, qardaşlıq dəyərlərindən uzaqlaşdırıb. Makronun keçmiş müstəmləkə ölkələrində apardığı sümürmə siyasətində ifrata varması, daxildəki uğursuzluqlarını sərt müstəmləkə siyasəti ilə ört-basdır etməyə çalışması əks-effekt verir. Məhz onun prezidentliyi dönəmində Afrikada, dənizaşırı ərazilərdə Yelisey Sarayına qarşı kütləvi etirazlar başlayıb.

Eyni zamanda, bu gün açıq şəkildə etiraf olunur ki, Makron iqtidarının apardığı siyasət bir sıra hallarda Avropa İttifaqının (Aİ) maraqları ilə üst-üstə düşmür. Bunu elə Yelisey Sarayının Cənubi Qafqaz siyasətinin timsalında da izləmək mümkündür. Rəsmi Paris Makronun siyasi iradəsinə uyğun olaraq işğalçı Ermənistana hərtərəfli dəstək verir, hər zaman beynəlxalq hüquq normalarından çıxış edən Azərbaycana isə müxtəlif məzmunlu təzyiqlər göstərməyə çalışır. Aİ yalnız Fransadan ibarət deyil. Burada sağlam qüvvələrlə müqayisələr aparılır. Azərbaycanın Aİ məkanı üçün önəmi getdikcə artır. Avropanın yeni enerji xəritəsi məhz respublikamızın iştirakı ilə formalaşır. Ermənistanın isə Avropa üçün önəmi sıfıra bərabərdir. Belə olan halda, Makron iqtidarı nəyə görə Azərbaycanla Ermənistan arasında fərq qoyur və bu ölkəyə səxavətlə vəsaitlər yönəldir? Məgər həmin pullara Fransanın özündə ehtiyac yoxdurmu?

Elə buradaca Fransanın daxili mənzərəsinə nəzər salaq. Ölkədə permanent qaydada pensiyaçıların tətilləri, fermerlərin “peyin inqilabı” baş verir. Bu günlərdə “Sarı jiletlilər” hərəkatı yeni tətillərin anonsunu etdi. Eyni zamanda, beynəlxalq reytinq agentlikləri ölkəni gözləyən dərin iqtisadi böhran proqnozu veriblər.

Bütün bu kimi proseslər həm Avropa məkanında, həm də ölkə daxilində Makron iqtidarından narazılıqları artırıb. Bu da “İntibah” partiyasının timsalında makronistlərin əvvəlcə Avropa Parlamentinə, bunun ardınca isə Milli Assambleyaya keçirilən seçkilərdə uduzmaları ilə nəticələndi.

## Makron seçkilərin nəticələrinə hörmətlə yanaşmalıdır

Bu günlərdə Makrona ölkədə yaratdığı vəziyyətə və seçkilərin nəticələrinə hörmət etməyə çağırış olunub. Xatırladaq ki, baş nazir Qabriel Attal istefa verib və iyulun 16-da Makron onun istefasını qəbul edib. XXXIII Yay Olimpiya Oyunları zamanı barışığa çağıran Makron parlament seçkilərinin ikinci turundan bir ay sonra hələ də ölkəyə baş nazir təyin etməyib. Makron avqustun ortasından sonra bu məsələyə baxacağını bildirib. Bu isə ölkədə narazılıq doğurub. “Dövlət rəhbəri artıq dövlət qurumlarını və ölkəni blok edə bilməz”, - deyə Sosialistlər Partiyasının (PS) sözçüsü K. Ridel yerli televiziyaya müsahibəsində vurğulayıb.



Qeyd edək ki, solçular Lüsi Kastetin (Lucie Castets) baş nazir postuna namizədliyini irəli sürsələr də, Makron bu təkliflə razılaşmayıb. K. Ridel dövlət başçısının Yeni Xalq Cəbhəsinin namizədini geri çevirməsindən təəssüflənərək, gələn ilin dövlət büdcəsinin müzakirə edilməli və buna görə də baş nazir təyinatını sürətləndirməyin lazım olduğunu diqqətə çatdırıb.

Eyni zamanda, Makronun impiçment məsələsi də gündəmə gəlib. Belə ki, “Əyilməz Fransa” partiyasının üzvləri Makronu iyulda keçirilmiş parlament seçkilərinin nəticələrini tanımadığı və sosialist siyasi qüvvələrin irəli sürdükləri namizədi baş nazir təyin etməkdən imtina etdiyi üçün onu demokratiyaya zərbə vurmaqda, həmçinin dövlət çevrilişinə cəhddə günahlandırıblar. Partiya təmsilçiləri prezidenti ona qarşı impiçment proseduru başlamaqla hədələyiblər. Onlar bildirirlər ki, dövlət başçısının qərarı demokratiyaya qarşı institusional çevriliş kimi dəyərləndirilə bilər.

Xatırladaq ki, Makron partiyası parlament seçkilərində iflasa uğrayandan sonra seçicilərin səsinin əksəriyyətini toplamış “Əyilməz Fransa” partiyasının qələbəsini tanımayıb. Həmçinin o, idarə etmək üçün Assambleyada kifayət qədər çoxluq qazana bilməyəcəyini anlayaraq, Yeni Xalq Cəbhəsi (NFP) qrupunun nümayəndəsi Lüsi Kastetin baş nazir təyin olunmasını rədd edib.

Verilən məlumatlarda bildirilir ki, bu yaxınlarda keçirilən sosial sorğu fransalıların 57 faizinin dövlət başçısının istefaya getməsini istədiyini göstərib. Hətta onun “İntibah” partiyasının tərəfdarlarının bir çoxu da hesab edir ki, seçkilərdə məğlubiyyət səbəbindən və baş nazirin siyasi opponentlər düşərgəsindən təyin olunacağı təqdirdə, Makron ölkəyə rəhbərlik edə bilməyəcək.

*MÜBARİZ*


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4847
Sifariş: 1888
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Mübariz Abdullayev